**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**SABİR NADİR OĞLU QASIMOV**

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ LİRİK MÖVZULARIN TƏCƏSSÜMÜ

**İxtisas: 6215.01 – "Təsviri sənət"**

sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənət" şöbəsində yerinə yetirilmişdi

**Elmi rəhbər:** ***Kübra Muxtar qızı Əliyeva***
sənətşünaslıq üzrə elmlər doktoru, professor
Əməkdar incəsənət xadimi

**Rəsmi opponentlər:** ***Arif Möhübəli oğlu Əziz***
Əməkdar incəsənət xadimi, professor

***Günay Nizami qızı Qafarova***
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı müəssisə:** ***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***

Müdafiə **2016-cı ilin yanvar ayının 12-də saat 13:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **"11" dekabr 2015-ci ildə** göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası Dövlət müstəqilliyini əldə etməsi təsviri sənətin ideoloji ehkamlardan azad olunması və onda dünyəvi bədiilik prinsiplərinin bərqərar olunması ilə nəticələnmişdir.

Müasir sənətşünaslıq elminin qarşısında duran mühüm məsələlərdən biri təsviri sənətin müasir inkişaf mənzərəsini yaradaraq, bu sahədə yaranmış lirik-poetik təmayüllü rəngkarlıq və qrafika ustalarının nailiyyətlərini sistemli şəkildə elmi təhlil metodu ilə müəyyən etmək və onlara qiymət verməkdən ibarətdir.

Müstəqilliyimizin elan olunmasından iyirmi beş ildən artıq keçməsinə baxmayaraq, bu mövzu monoqrafik təhlil və həmin sahənin yeni nailiyyətləri elmi araşdırmaların obyekti və predmetinə çevrilməmişdi.

Azərbaycan rəngkarlığı və qrafikası sahəsində son zamanlar əldə edilmiş bir sıra əhəmiyyətli nailiyyətlərin monoqrafik şəkildə tədqiqinə, bu sənətdə çalışan sənətkarları müəyyənləşdirməyə və dünya təsviri sənətinin inkişafı ilə müqayisə edərək, onun inkişaf potensialını dəyərləndirməyə əsaslar yaratmışdır.

1950-70-ci illərdə Azərbaycan rəssamlar nəsli haqqında çox yazılar olmuşdur. Bunlar sanballı monoqrafiyalar, incəsənət üzrə jurnal və qəzetlərdəki məqalələr, kataloqlar, həmçinin kitablardır. Lakin onlara həsr olunmuş ümumiləşdirici sonuncu nəşrlər 1980-ci illərə aiddir. Bu gün həmin illər rəssamların yaradıcılıqlarının təhlili tamamilə fərqlənir və başqa dövr kimi nəzərdən keçirilir.

Azərbaycanın müstəqillik əldə etdiyi müasir dövrdə ölkə rəngkarlarının və qrafika ustalarının əsərlərinə xas olan obrazlı-rəmzi düşüncə tərzi, poetik və lirik-bədii yozum, əsərlərində nəzərə çarpan fəlsəfi qayə, ümumiyyətlə təsviri sənətimizə gətirdiyi yeniliklər, rəssamlarımızın bu sahədəki yaradıcılığının izlənməsinin zəruriliyini sübut edir. Bu baxımdan Azərbaycan rəssamlarının yaradıcılığında yer alan lirik mövzulu əsərlərinin axtarış istiqamətlərini və yeni təmayüllərinin bütövlükdə, hərtərəfli, küll halında tədqiq edilməsinin və bu problemin elmi-nəzəri kontekstdə araşdırılıb fundamental iş şəklində təqdim olunması aktual məsələ kimi qarşıya qoyulur.

**Problemin işlənmə dərəcəsi.** Göstərilən mövzu üzrə bir sıra nəşrlər mövcuddur. Azərbaycan təsviri sənətinin, xüsusən dəzgah rəngkarlığının inkişafına münasibətdə N.M.Miklaşevskayanın "Azərbaycan sovet incəsənətində sosrealizm sənətinin yaranması və inkişafı (1920-1945)"[1], M.Nəcəfovun "Sovet Azərbaycanının təsviri sənəti"[2], N.Həbibovun "Sovet Azərbaycanının rəngkarlığı"[3], R.Kərimovanın "Azərbaycanın Sovet portret boyakarlığı"[4], P.Hacıyevin "Zamanın boyaları"[5], Z.Əliyevin[6] monoqrafiyaları, eyni zamanda Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun "Azərbaycan incəsənəti"[7] kimi kollektiv əsərləri və digər tədqiqatlar əsas rol oynamışlar.

Bundan əlavə, Azərbaycan rəngkarlığı üzrə bir sıra icmal səpkili məqalələri, onların arasında müxtəlif rəssamlarımızın yaradıcılığına həsr olunmuş oçerkləri, həmçinin N.Həbibovun "Sovet Azərbaycanının incəsənəti" kitabını[8] qeyd etmək olar. Araşdırmalar zamanı Azərbaycanın tanınmış sənətşünaslarının əsərlərində öz əksini tapmış zəngin faktiki materiallardan geniş istifadə edilmişdir. İş prosesində son 15-20 il ərzində keçirilmiş sərgi kataloqlarına istinad olunmuşdu.

Qeyd edilən ümumiləşdirici kollektiv əsərlərinin əsasını təşkil edən N.Həbibov, M.Nəcəfov, M.Tərlanov, R.Əfəndiyev, P.Hacıyev, Z.Əliyev kimi görkəmli

---

[1] Миклашевская Н.М. Становление и развитие искусства социалистического реализма в Советском Азербайджане (1920-45). Баку: Элм, 1974. 241 с.

[2] Наджафов М. Изоискусство Советского Азербайджана. М.: Советский художник, 1965. 74 с.

[3] Габибов Н. Живопись Советского Азербайджана. Баку: Элм, 1982, 168 с.

[4] Kərimova R. Azərbaycan Sovet portret boyakarlığı. Bakı: Az.SSR EA nəşriyyatı, 1964. 179 s.

[5] Hacıyev P. Zamanın boyaları. Bakı: Gənclik, 1979, 145 s.

[6] Əliyev Z. Naməlum Səttar. Bakı: Buta, 2006, 79 s.; Səttar Bəhlulzadə yaradıcılığında romantizm. Sənətşünaslıq üzrə fəlsəfə doktoru diss. avtoref. Bakı, 2011; Sənətin Məcnunu. Bakı, 2009; İlmələrin hikməti. Eldar Mikayılzadə. Bakı 2013. s.254; Tamilla Seyidova. Gerçəkliyin rəngi. Bakı 2014; Zakir Hüseynov. Tənha döyüşçü – Bakı, 2011, 208 s.; Ceyhun Həmzəyev. Sönmüş ocağın işıqları – Bakı: Letterpress, 2013, 80 s.; Asəf Cəfərov. Kataloq. Bakı, 2008; Tofiq Ağababayev. Kataloq. Bakı, 2009; Qəyyur Yunus. Kataloq. Qara rəngin işığı. Bakı, 2010; Təzadlı yaşantıların istedadlı ifadəçisi (Nağdəli Xəlilov haqqında) // "Respublika". 2009. 27 sentyabr, s.5; Romantik duyğuların mahir ifadəçisi: Əməkdar rəssam Rafael Abasovun yaradıcılığı barəsində qeydlər // "Palitra". 2010. 26 noyabr. s.11; Xan qızının "Gül dəftəri" // 525-ci qəzet .-2012.- 8 sentyabr.- S. 24-25; Nizami poeziyası miniatürlərdə // "Kommunist", 23, Avqust, 1991; Cəmil Müfidzadə. Cizgilərə hopan ömür. Bakı, 2010; Alim, musiqişünas, rəssam Mir Mövsüm Nəvvab-160: // "Bakı" 1994. 12. May. s. 12; Dünyamız lirik duyğulara bələnəndə... mənzərə ustası İsa Məmmədovun yaradıcılığı haqqında düşüncələr // "Kaspi" qəz. 2015, 1 iyun. s.11; Ənənəyə qaydışın müasirliyi // "Kaspi" qəz. 2015, 9 may. s.14.

[7] Azərbaycan incəsənəti. Tərtib edənlər: Ə.Salamzadə, N.Rzayev, K.Kərimov, R.Əfəndiyev, N.Həbibov. Bakı: Maarif, 1977. 221 s.; Azərbaycan incəsənəti. Tərtib edənlər: K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov. Bakı: İşıq, 1992. 344 s.

[8] Həbibov N. Sovet Azərbaycanının incəsənəti. Bakı, 1982.

sənətşünasların faktiki materiallarının şərh edilməsindən əlavə, janrların inkişafının əsas təmayülləri də tədqiq olunurdu.

Dissertasiyada mövcud olan tədqiqatlarla geniş faktiki materialın aydınlaşdırılmasına, sistemləşdirilməsinə, dövr və mərhələlərin müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verilir.

Azərbaycan rəngkar və qrafiklərinin müvəffəqiyyətləri yalnız tarixi deyil, eləcə də nəzəri ümumiləşdirilmə üçün zəngin material verir. Sənətşünaslardan M.Alpatov, E.Basin, L.Zinger, A.Kantor, A.Kamenski, V.Lenyaşin, V.Manin, A.Morozov, L. Moçalov və başqaların əsərlərinin xüsusi əhəmiyyət kəsb etməsini ayrıca qeyd etmək lazımdır.

Lakin bununla bərabər, qeyd etdiyimiz kimi, son iyirmi il ərzində Azərbaycan rəssamlarının yaradıcılığı sənətşünaslıq ədəbiyyatında öz əksini layiqincə tapmamışdı. Məhz rəssamların yaradıcılığındakı bu boşluğun aradan qaldırılmasında tədqiqatçının araşdırmaları xüsusi əhəmiyyət daşıyır.

Bazar iqtisadiyyatının təsviri sənətə sirayət etməsi nəticəsində sənətə olan marağın azalması sənətşünaslığa da öz təsirini göstərmişdir.

Azərbaycan təsviri sənətinin inkişafına retrospektiv baxış kimi bəzi monoqrafik sənətşünaslıq tədqiqatlarını göstərmək olar. Bu tədqiqatlarda sovet və müstəqillik dövrünün bir neçə sənətkarlarının əsərləri tədqiq olunmuşdu.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan təsviri sənətinin aparıcı istiqamətlərindən biri olan lirik mövzunu sistemli təhlil etmək, onun rəngkarlıq və qrafikanın müxtəlif janrlarındakı inkişafını monoqrafik tədqiq edərək, bu sahədə aparıcı sənətkarların yaradıcılığında yaranmış axtarış istiqamətlərini və yeni təmayülləri müəyyən etməkdir.

Tədqiqatın əsas vəzifələri kimi aşağıdakıları qeyd etmək olar:

- Azərbaycan təsviri sənətinin keçdiyi tarixi yola nəzər salaraq, hələ orta əsr Azərbaycan miniatürlərində inkişaf tapmış lirik-poetik mövzulu əsərləri təhlil etmək, bədii ənənələri müasir dövrdə müəyyənləşdirmək;
- Azərbaycan təsviri sənətinin sovet dövründə dəzgah rəngkarlığı və qrafikasının inkişaf mərhələlərini tədqiq edərək, lirik-poetik təmayülləri izləmək;

- müstəqillik dövründə rəngkarlıq və qrafika sahəsində yaranmış lirik-poetik meylləri araşdıraraq, onları ümumiləşdirmək;

- müasir rəngkarlıq və qrafika sahəsində çalışan rəssamların yaradıcılığında ənənəvi lirik-poetik təmayülləri müəyyən edərək, onların yaradıcılığını təhlil etmək, bu səpkidə yaranmış yüksək bədii dəyərə malik əsərləri təyin etmək;

- müasir Azərbaycan rəngkarlıq və qrafikasının lirik-poetik təmayüllərin inkişafından bəhrələnən istedadlı, gənc rəssamların yaradıcılıq axtarışlarının diapazonunu müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində Azərbaycan rəssamları tərəfindən son dövrlərdə yaradılmış lirik mövzulu təsviri sənət əsərləri çıxış edir.

Tədqiqatın predmetini müasir təsviri sənət əsərlərində məzmun və formanın bədii vəhdəti, əsərlərdə lirik-poetik təmayüllü təfəkkürün müəyyənləşdirilməsi, bu təsviri obrazların spesifik xüsusiyyətləri və yaradıcılıq problemlərinin həlli məsələsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işi nəzərdən keçirilən inkişaf problemlərinin təhlilində milli və beynəlxalq dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri müddəalarından, təsviri sənətin növ və janrlarının spesifik xüsusiyyətlərindən faydalanmışdır.

Problemin tədqiqində tarixilik prinsipinə və xronoloji ardıcıllığa riayət edilmiş, başlıca olaraq tarixi-müqayisəli və sənətşünaslıq təhlili metodlarından istifadə olunmuşdu.

Təsviri sənətin mərhələli inkişafı zamanla lirik-poetik təmayülləri təhlil edərək, növ və janr xüsusiyyətlərinin daha obyektiv işıqlandırılmasına şərait yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ondan ibarətdir ki, sənətşünaslıq təcrübəsində ilk dəfə olaraq Azərbaycan rəssamlarının əsərlərindəki lirik təmayüllərin tam, hərtərəfli təhlili aparılmış, son illərdə ideologiya, metodologiya və bədiilik sahəsindəki dəyişikliklər nəzərə alınmaqla təsviri sənət tarixində bu təmayüllərin rolunu və yerini müəyyənləşdirməyə cəhd göstərilmişdi. Bu mövzuya müraciət əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

- Azərbaycan təsviri sənətində lirik-poetik təmayüllərin orta əsrlərdən indiyədək əldə etdiyi nailiyyətlər ilk dəfə sistemli olaraq monoqrafik tədqiqat obyekti kimi çıxış edir;

- müstəqillik dövründə Azərbaycan təsviri sənətinin lirik-poetik mövzulu əsərlərdə yeniliklər ümumiləşdirilərək, inkişafı müəyyən edilmişdi;

- son otuz il ərzində yaradılmış çoxsaylı rəngkarlıq və qrafika əsərləri təhlil olunmuş və bu sahədə elmi yenilik kimi qiymətləndirilmişdir;

- rəngkarlıq və qrafika sahəsində çalışan bir çox gənc və istedadlı rəssamların yaradıcılığında lirik-poetik təmayüllər araşdırılmış, onların təsviri sənətin inkişaf prosesində rolu və yeri müəyyən edilmişdi;

- xüsusi və elmi ədəbiyyatda öz əksini tapmamış bir çox yüksək bədii dəyərə malik lirik-poetik mövzulu əsərlər ilk dəfə olaraq elmi araşdırmanın obyekti kimi nəzərdən keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Rəngkarlıq və qrafikada lirik mövzulu əsərlərin hazırkı tədqiqatı Azərbaycan təsviri sənət tarixini ən son nailiyyətlərlə zənginləşdirmiş, növ və janr müxtəlifliyi diapazonunu genişləndirərək incəsənətin ümumi inkişafında yeri və rolunu müəyyən etmişdi.

Tədqiqatın nəticələrinə təsviri sənət üzrə nəzəri tədqiqat, monoqrafiya, albom və məqalələrdə istinad edilə bilər. Dissertasiyanın materiallarından sənətşünas, kulturoloqların elmi işində, "Azərbaycan təsviri sənəti tarixi" fənninin tədrisində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmiş və şöbənin iclasında müzakirə olunmuşdu. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 7 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu 126 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti və problemləri, məqsəd və vəzifələri, tədqiq tarixi və işlənmə dərəcəsi, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Orta əsrlər Azərbaycan təsviri sənətində lirik süjetlərin təcəssümü"** adlı I fəslin ilk yarımfəsli **"Azərbaycan miniatürlərində lirik mövzulara erkən müraciət"** adlanır və bu yarımfəsildə lirik səpkili əsərlərin təhlili öz əksini tapıb.

Azərbaycanda mövcud olmuş miniatür boyakarlığı Səfəvilər hakimiyyəti dövründə özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Bu inkişaf təbii olaraq, həmin dövrdə ümumi ictimai-mədəni mühitin təsiri və yaradıcılıq üçün daha əlverişli şəraitin, qayğının olması nəticəsində baş vermişdir. Bu dövrdə ölkəyə başçılıq edən şəxslər onun müxtəlif sahələrinin inkişafı ilə yanaşı, mədəniyyət və incəsənətin tərəqqisinə, təbliğ edilməsinə xüsusi qayğı göstərmiş, onu daim diqqət mərkəzində saxlamışlar.

Klassik Şərq poeziyası miniatür sənətinin nəinki məzmununu və ideya istiqamətini müəyyənləşdirmiş, eyni zamanda onun bədii forması və ifadə vasitələrinin inkişafına da təsir göstərmişdir. Bu poeziyanın yüksək obrazlar aləmi, zəngin və zərif dili, forma və vəzn müxtəlifliyi, şeiriyyəti, musiqi ahəngi rəssamlara poetik və lirik təsvir dilinə uyğun gələn bədii forma, şərti dekorativ üslub, obrazlı ifadə vasitələri tapmağa geniş imkan yaratmışdır.

Lirik mövzu hələ orta əsr miniatür rəssamlarının əsərlərində geniş yer tuturdu. Məsələn, müsəlman Şərqində miniatür rəssamlarının "Çimən Şirin" və ya "Məhəmməd peyğəmbərin meracı" kimi ciddi ikonoqrafik sxemli süjetləri Sultan Məhəmmədin "Leyli və Məcnunun görüşü" kimi misilsiz əsərlər yaratmasına mane olmadı. Lirik mövzular əsasən Nizaminin "Xəmsə"sinə və ona nəzirə olan Əmir Xosrov Dəhləvi, Ə.Cami, Ə.Nəvai və başqa klassiklərin əsərlərinə XV əsrin əvvəlindən başlayaraq çəkilmiş miniatürlər arasında daha çox öz əksini tapır. Bu

nöqteyi-nəzərdən xüsusilə Nizaminin 1481-ci il tarixli və 1539-43 illərin "Xəmsə" əlyazmalarının illüstrasiyaları xüsusi maraq doğurur. Bu zərif nüsxələr Təbrizdə Soltan Yaqub Ağqoyunlu və şah Təhmasibin dövründə köçürülmüşdü.

Rəssamların təbiətə marağı xeyli artmışdı. Mənzərə kompozisiyanın ayrılmaz tərkib hissəsinə çevrilmiş, miniatürün lirik məzmununun açılmasında həlledici rol oynayırdı. Rəng daha çox dekorativ səciyyə daşıyır. Parlaq, təmiz rənglərin bir-birini əvəz etməsi onların təzadlı, düzgün və ritmik təkrarı koloriti daha da zənginləşdirir, miniatürün emosional və lirik təsir gücünü artırır.

Şah İsmayılın "Bahariyyə" əsərində onun yaradıcılığı üçün səciyyəvi olan təbiətin kəskin surətdə dərin qavrayışı, onun ilhamlığını ifadəçiliyin son həddinə, ən uca zirvəsinə yüksəldir. Sənətkar qarşımızda qış yuxusundan ayılan təbiətin lirik və əzəmətli mənzərəsini açır, bu halda ətraf aləmin ən cüzi təzahürü ilahiləşdirilir və canlı, həssas könüllə mükafatlandırılır. Şairin "Bahariyyə"sinin məcazi poetik sətirləri heyrətamiz dərəcədə ifadəli, göz qarşısında canlanan mənzərəli təəssürat yaradır.

Miniatürdə dərin emosional və lirik təəssürat təkcə hadisənin və personajların fərdi həyəcanlarının göstərilməsilə deyil, həmçinin miniatürün bütün təsvir vasitələrini və ilk növbədə onun rəng ahəngini fərqləndirən gözəlliyin həyəcanlı və gərgin hissinin sayəsində baş verirdi. Miniatür əsərlərdə kolorit sisteminin yaranması bir çox halda ənənəvi və şərti personajların tabe edildiyi lirik emosiyanın xüsusi vasitəsidir. Miniatür əsərlərində yaradılmış rəng sistemi lirik emosiyanın xüsusi daşıyıcısıdır. Hələ onların süjet münasibətlərini dərk etməmiş bir rəng quruluşu ilə rəssamın öz əsərində ifadə etməyə çalışdığı o hissləri dərindən dərk etmək olar.

Sözsüz ki, miniatür bir çox şeydə şərtidir. Onda real məkan yoxdur, səthdə əlvan dekorativ naxış kimi təsvirlər, insan obrazı qanuna uyğun tələblərə tabe edilmiş, onun daxili həyatı açılmamış, rəng həlli son dərəcə qeyri-adi zəngin və çalarlıdır və özündə müəyyən simvolika gizlədir. Şərtilik bəzən miniatürün təsviriliyini məhdudlaşdırır. Lakin bütün təsviri şərtiliyə baxmayaraq miniatür dərin poetik, lirik obrazlarda həyatın məzmununu açan böyük bədii ifadəliyə malikdir. Miniatürün dəyəri yüksək bədii keyfiyyətləri ilə – mükəmməl kompozisiya, rəsmin elastikliyi, gözəl koloritlə

tükənmir. Miniatürün musiqili ritmində, onun rənglərinin intensivliyində, xətlərin hərəkətində real, poetik- lirik hissiyyatı duyulur. Rəssamın düşüncəsində miniatürdə dünya öz təntənəli aspektində – möhtəşəm sehrli bağ, ya çiçəklənən badamın ağ-çəhrayı ləçəyi, ya da küləyin təsirindən titrəyən tünd qırmızı-sarı payız yarpaqlarıdır. Bu, çəmənliyin çəhrayı, mavi, yasəməni, qızılı kimi rəngarəng güllərlə örtülmüş xalçası, donmuş lava parçalarına bənzər üst-üstə yığılan qayalar, gümüşü çaylar, qaçan buludcuqlar və qızılı ulduzlarla səmanın açıq-göy qübbəsidir. Əlvan geyimli insanlar, sevimli vərdişlərlə verilmiş heyvan və quşlar, bəzəkli pavilyonlara bənzər və ya zəngin ornamental naxışlı şərq memarlıq formalarını təqlid edən binalar, incə zövqlə təsvir edilmiş məişət predmetləri – bütün bunlar vahid kompozisiya və rəng ritmində birləşərək həyatın işıqlı sevinclə dolu bütöv obrazını yaradır.

I Fəslin **“XVIII-XIX əsrlər Azərbaycan təsviri sənətində lirik motivlər”** adlı ikinci yarımfəslində qeyd olunur ki, orta əsrlərdə duyulası tərəqqi mərhələsini yaşayan Azərbaycan miniatür rəssamlığı tədricən qazandığı özünəməxsus bədii-estetik məziyyətləri artıq XIX əsrdə özündə Qərb və Şərq bədii ənənələrini birləşdirən yeni əlamətlərlə zənginləşməyə başlamışdı. Bu prosesdə Naxçıvan və Şuşa rəssamlıq məktəbi nümayəndələrinin aparıcı rol oynadıqlarını vurğulamaq lazımdır. Əgər bilavasitə Şuşada gedən bədii proseslərə nəzər salsaq, onda rəssamlığın müxtəlif sahələrində Mir Möhsün Nəvvab, Usta Qənbər Qarabaği, onun qardaşı Səfər və oğlu Şükürlə yanaşı Xurşudbanu Natəvanın da səmərəli fəaliyyət göstərdiyini qeyd etməliyik. Onun çəkdiyi rəsmlər bədii həllinə görə o dövrdə yaradılan təsviri sənət nümunələri arasında özünəməxsusluğu ilə seçilir.

Azərbaycan mədəniyyəti tarixində istedadlı şair, musiqi nəzəriyyəçisi və xəttat kimi tanınmış Mir Möhsün Nəvvab rəssamlıq sahəsində də fəaliyyət göstərmişdi. Onun əsərlərində təbiət motivləri, güllərin, quşların təsviri əsas yer tutur. O, həm özünün əlyazmalarının səhifələrini, həm də ayrı-ayrı kompozisiyalarda bu motivlərin forma-biçimini, rəng həllini xeyli zənginləşdirmişdir. Rəssamın nəbati motivlərdən uğurla istifadə etdiyi kompozisiyalardan biri “Güllər” əsəridir. Tempera ilə işlənmiş bu kompozisiyada rəssam iri və kiçik ölçülü güllərin simmetrik düzülüşündən bacarıqla istifadə etmişdir. Uğurlu işıq-kölgə həlli yuxarıda və aşağıda yerləşdirilmiş

pionların, kompozisiyaya rəngarənglik gətirən bənövşə və sabahgülünün forma-biçimini, xırda ləçəklərinin duyulanlığını şərtləndirmişdir. M.M.Nəvvabın bu səpkili işlərinin XVIII-XIX əsrlərdə Azərbaycanda yaşamış rəssamların yerinə yetirdikləri tərtibatlarla, o cümlədən, Şəki Xan sarayının divar rəsmləri ilə fərqli və oxşar cəhətləri var.

Divar rəsmlərinin rəngkarlıq prinsipində rəssam qədim sənətkarlardan fərqli olaraq divarı başdan-başa naxışlarla örtmür, səthi təkrarlanan ayrı-ayrı iri kompozisiyalarla bəzəyirmiş. Divar rəsmlərinin əsas motivini çiçək açmış qızılgül kolları və bülbül təsvirləri təşkil edir. M.M.Nəvvabın evindəki otaqların divarlarında on iri və bir-neçə çiçək, qızılgül kolu ciddi ardıcıllıqla yerləşdirilib. Adəti üzrə, rəssam qızılgül kollarından ibarət kompozisiyanın aşağı hissəsini müxtəlif ölçülü butalardan ibarət naxışlarla tamamlayıb[9].

"Xan qızı" kimi tanınan, xeyirxah işləri və nəcibliyi ilə el içində dərin hörmət qazanan görkəmli Azərbaycan şairəsi Xurşudbanu Natəvan gözəl söz ustası və ictimai xadim kimi tanınmaqla yanaşı, həm də incə zövqə malik rəssam və bədii tikmə ustası olub. Onun naturadan çəkdiyi şübhə doğurmayan "Üzüm salxımı", "Lalə", "Gül", "Çiçək", "Süsən", "Qərənfil" və s. rəsmləri Azərbaycan təsviri sənətində sonradan geniş yayılacaq natürmort janrının ilkin işartısı olması baxımından da əhəmiyyətlidir. Bilərəkdən təsvirin diqqətçəkənliyini şərtləndirən neytral fon-yerlikdə görüntüyə gətirilən "cansız əşyalar" Natəvan təqdimatında, onun bədii təfsirində cəlbedici olmaqla yanaşı, həm də dəyişkən rəng həllinə görə duyğulandırıcı və yaddaqalandırlar. Bununla da, Azərbaycan poeziyasında dərin iz saldığını bənzərsiz qəzəlləri ilə təsdiqləyən şairə o vaxta qədərki milli təsviri sənətimizdə yer almış əfsanəvi-mifik obrazlar dünyasına yeni motivlər gətirib[10].

Beləliklə, XVIII – XIX əsrin II yarısında Azərbaycan təsviri sənətində ənənəvi bədii forma üstünlük təşkil edirdi. Bu dövrdə yaranan əsərlər bədii obrazın idealizə edilməsi, formanın dekorativ səpkidə həlli, zərif və ifadəli rəsmi, lokal və parlaq rənglərin kontrast düzümü, koloritin zənginliyi, lirik-romantik əhval-ruhiyyənin

---

[9] Əliyev Z. Alim, musiqişünas, rəssam Mir Mövsüm Nəvvab-160: // Bakı. 1994. 12 may, s. 12.
[10] Əliyev Z. Xan qızının "Gül dəftəri" // "525-ci qəzet". 2012. 8 sentyabr, s. 24-25.

dolğunluğu və başqa üslub xüsusiyyətlərinə görə klassik Şərq miniatür sənətinin gözəl ənənələrini əks etdirirdi.

Dissertasiyanın **“Sovet dövrü Azərbaycan təsviri sənətində lirik əsərlərin bədii xüsusiyyətləri”** adlı II fəslin **“Mənzərə janrında lirik əhval-ruhiyyənin təcəssümü”** adlı birinci yarımfəslində mənzərə janrı lirik-poetik duyğuların ifadəçisi kimi araşdırılır. Qeyd olunur ki, Azərbaycan boyakarlığında mənzərə janrına məna-məzmun, həm də ovqat daşıyıcısı kimi xüsusi əhəmiyyət verilmişdi. Təbiətin gözəlliyindən, rəng silsiləsindən güc alan rəssamlardan biri Bəhruz Kəngərli realist mənzərə janrının əsasını qoyanlardandır. Həyatının çox hissəsini doğma diyarı Naxçıvanda yaşamış rəssam Naxçıvanın abidələrini, xüsusilə mənzərəli təbiətini, dağlarını, çaylarını, yaylarını rənglərin dili ilə fırçaya almışdır. “Naxçıvanda şəlalə”, “Dağlıq mənzərə”, “İlanlı dağ ay işığında”, “Günəş batarkən”, “Ağrı dağı”, “Köhnə qala”, “Əliabad kəndində alaqapı”, “Yamxana kəndinə gedən yol”, ölkəmizin mədəniyyət abidələrinin təsviri “Möminə xatın türbəsi”, “Əshabi-Kəhf dağı”, “Nuhun qəbri”, ilin fəsilləri “Payız”, “Bahar” bu baxımdan diqqət çəkicidir[11]. Bəhruz Kəngərli təbiətin eyni guşəsini bir neçə dəfə günün müxtəlif saatlarında təsvir etməyə üstünlük verirdi. Bununla da rəssam təbiətdə baş verən ani dəyişikliklərə diqqəti cəlb edirdi. Bunu onun Naxçıvanın rəmzinə çevrilən İlan dağa həsr etdiyi lövhələrində müşahidə etmək mümkündür.

Öz mənzərələrində dahi rəssam Səttar Bəhlulzadə müşahidə zamanı aldığı təəssüratın təravətini bütünlüklə saxlaya bilmişdir. Boyaların harmoniyası, kolorit zənginliyi, bağ-bağatlı vadidən Şahdağın dümağ zirvələrinə qədər baş alıb gedən geniş sahənin bütövlükdə, vəhdətdə verilməsi təsvirə monumental, əzəmətli bir görkəm verir, tabloya epik bir həyəcan, lirik əhval-ruhiyyə bəxş edir. Havanın açıq, yaşılı-qızılı rəngi, kolların tünd yaşıl rəngi ilə birlikdə həzin yay axşamının gözəlliyini çox düzgün əks etdirir. “Qızbənövşəyə gedən yol”, “Yaşıl xalı”, “Quba mənzərəsi”, “Xəzərdə axşam”, “Kəpəzin göz yaşları”, “Bağlar arasında”, “Cıdır düzü”, “Əmsar bağlarında” əsərlərində rənglərin axıcılığı, keçidləri, harmoniyası və onların yaratdığı lirizm və romantik ruh sənətkarlıq baxımından çox yüksək və

---

[11] Həbibov N. Təsviri sənət haqqında söhbətlər. Bakı: Gənclik,1967. s.20.

əlçatmazdır. Onun tablolarında ayrı-ayrı süjetlər həssaslıqla və dərin məhəbbətlə təcəssüm etdirilmiş, romantik hisslər, ülvi və pak duyğular yeni kompozisiya həllində, eləcə də boyakarlıq üslubunun zənginliyində təsirli ifadəsini tapmışdır[12].

Azərbaycan rəngkarlığında mənzərə janrının inkişafında böyük əməyi olan Böyükağa Mirzəzadənin hər bir əsəri Azərbaycanın təkrar edilməz müxtəlif mənzərələrinin xüsusi guşəsini bizə açır. Epik və lirik başlanğıcın uyğunlaşması "Lənkəran mənzərəsi" əsərində zahirə çıxır. Mənzərədə buludların axşam sakitliyində sərinləşmiş gölün çox böyük səthinin geniş panoramda göstərilməsi epik səslənir. Rəssam, zəngin dağ otlaqlarının sıx bitmiş otlarını, tünd göy fonda işıqlı ləkələrlə fərqlənən gülləri göstərir. Mənzərədə yayılmış sakitlik hissiyyatı əsərin kompozisiya quruluşu ilə qeyd edilir: gölün suyunun sakit işıltısı ilə buludların dalğavarı xətti sahilin hamar çevrəsində ritmik təkrar olunur. Bu axşam qabağı saatda təbiətdə şahlıq edən harmoniya, gecə səmasının və gölün işıqlı tonları ilə birləşmədə və əsərin qabaq planının kölgələnməsi ilə koloritdə də çox incə verilmişdi[13].

Asəf Cəfərov rəngkarlıqda daim yeni ifadə vasitələri axtaran sənətkardır. Onun Bakıya və Azərbaycan rayonlarına həsr olunmuş bir çox mənzərələri üçün həyatı poetik və lirik-romantik dərk etmək səciyyəvidir. Belə əsərlər sırasına "Buzovna kəndi", "Quşlar uçurlar" ("Abşeron"), "Kəl ilə mənzərə", "Pəncərə", "Əncir kolları", "Tufanlı Xəzər", "Abşeronda bahar", "Bakıda qar", "Qəş-Qəş mənzərəsi", "İçəri-Şəhərdə" (silsilə), "Bakı gecəsi" və s. əsərləri daxildir[14]. Asəf Cəfərovun silsilə əsərlərinin səciyyəvi xüsusiyyətlərinə onların nəğməkarlığından, rəsm dilinin melodikliyindən, lirizmindən baxmaq lazımdır. Məhz bu melodiklik onun kətanlarının özünəməxsus poetikliyini müəyyənləşdirir. Ona görə də, rəssamın əsərlərində dağ kəndinin real həyatı poetik şərhlə canlanır.

Mikayıl Abdullayevin müasir Azərbaycan rəngkarlığında mənzərə janrının inkişafında əməyi çox böyükdür. Rəssamın insanların mənəvi gözəlliyini, doğma təbiəti əks etdirən "Axşam", "Mingəçevir işıqları", "Səadət quranlar" tablolarında,

---

[12] Əliyev Z. Naməlum Səttar. Bakı: Buta, 2006, s.14.
[13] Böyükağa Mirzəzadə. Rəngkarlıq və qrafika. Mətnin müəllifi Ş.Məlikova. "Xalq əmanəti" layihəsi – Bakı: Xalq Bank, 2010. s.18.
[14] Габибов Н. Асаф Джафаров. Живопись – М.: Советский художник, 1981. s.20.

Hindistan səfəri zamanı yaratdığı “Çaypurda məbəd”, “Çaypurda gecə”, “Kəlkütdə küçə” əsərlərində personajları, əşyaları və mühiti eyni bir vəziyyətə, bütöv ritmə və ahəngdarlığa tabe edir, lirik əhval-ruhiyyə yaratmağa nail olur.

Öz xalqının gözəl keyfiyyətlərini, təbiəti duymaq hissini əsərlərində daha şövqlə verməyə çalışan Nadir Əbdürrəhmanovun rəngkarlığı böyük ilhamlılıq və nəfislik kəsb edir, rəng koloriti hissin başlıca daşıyıcısıdr. Onun işlərindəki lirik hisslər incəlik və hətta bəzən müəyyən kövrəklik kəsb edir. Rəssam sanki xüsusi mənəvi mühitlə bürünmüş kətan yaradır. Bu işlərdə bununla bərabər rəssamın daha aydın tərzdə şəxsiyyəti, onun düşüncələri, ehtirası parlaq sərbəst büruzə çıxır. Nadir Əbdürrəhmanov üçün xarici səfərlər, Fransanın, İtaliyanın dünyada məşhur olan kolleksiyaları ilə tanışlıq böyük məna daşıyırdı. İtaliya rəssamı mavi səmasının sonsuzluğu, memarlığının incə rəngarəng ahəngdarlığı, dinclik və sakitliyin örtüyü altında daxili hərəkəti ilə valeh edirdi. Burada yaradılan işlərdə idilliya və patetikanı lirik hissin səmimiliyi əvəzləyir. Memarlıq abidələrinin obraz məzmununu ahəngdarlıq və yaxud əksliklə müəyyənləşdirilir. Rəssam əsrlər boyu paytaxtın hansı adətlərlə, cəhətlərlə şöhrətləndiyini göstərir. Bu əyləncə gözəlliyinə, ala-bula parıltılı formaların çevik fırlanmasına ehtiras “İtaliyanın dekorativ təmtəraqlı gözəlliyə olan daxili sisteminin mahiyyətini, zövqünü və istəyini” ifadə edir. Bu seriyanın işləri mülayimliyi və həqiqiliyi ilə həyəcanlandırır. Onda nəhəng qədim abidələrdə olan sarsıtmaq meyli yoxdur[15].

Kamil Nəcəfzadənin mənzərə motivləri içərisində Xəzər dənizi əhəmiyyətli yerlərdən birini tutur. Doğan günəşin şəfəqlərini, yaxud ay işığının saldığı cığırı əks etdirən suyun səthi, dəniz üzərində süzən qağayılar, ləpələrin yırğaladığı qayıqlar – bunlar hamısı, şübhəsiz ki, rəssam təxəyyülünə zəngin qida verirdi. “Aylı gecədə qayıqlar” əsəri mavi çalarlarda ifa edilmiş üfüqi kompozisiya şəklindədir. Burada təsvir olunmuş yelkənli qayıqlar ay işığı və xəfif dalğalanan gümüşü sularla birgə elə bir romantik əhval-ruhiyyə yaradır ki, bu zaman reallıq və qeyri-reallıq arasındakı fərq sanki, silinib gedir. Çoxsaylı yelkənli gəzinti qayığının aylı gecədə dənizə çıxması, çətin ki, realist əhval yarada bilsin. Ola bilsin ki, reallığa yaxın olan bir

---

[15] Həbibov N. Azərbaycan sovet rəssamlığı. Bakı: Azərnəşr, 1966, s.140.

səhnənin impulsu tədricən inkişaf edib, impressionist sayağı, yüngül koloritli, işıldayan bir əsərə çevrilmişdir.

Mahmud Tağıyevin yaradıcılığı haqda danışarkən, onun məşhur “Lalələr”ini qeyd etməmək olmaz. Rəssamın sevib-seçdiyi lalələr açıq sahədə hündür otun arasında o qədər incə, gözəl və kövrəkdirlər ki, təbiət onlara qısa müddətli həyat və tez solmaları müqabilində böyük həyat enerjisi, lirizm və nikbinlik dolu parlaq, qayğısız rəng, müstəsna çalar bəxş edib. Buna baxmayaraq əsərə baxarkən həyəcan, güclə sezilən təşviş də duyulur. Sanki həyatın bu kiçik fraqmenti vasitəsilə rəssam öz daxili durumunu – izah olunmaz sıxıntılarını, ruhunun çırpıntılarını ifadə edir[16].

Xalidə Səfərova yaradıcılığının leytmotivini mənzərə və natürmort janrında çəkilən əsərlər təşkil edir. Bu iki janr rəssamın naturasının romantik və zərif tərəflərini təcəssüm etdirir. Onun güllərlə natürmortlar silsiləsi ətir, bahar təravəti və qeyri-adi həyat eşqi, lirizm saçır. “Payızgülü”, “Zinya çiçəyi”, “Bahar çiçəkləri”, “Monmartr gülləri” kimi əsərləri rəng və çalarların parlaq ahəngi, zəriflik, çiçəkləyən təbiətin harmoniyasını əks etdirən nəfis dəstələrdə cəm olmuş çiçəklərin şəffaflığı və qısamüddətli gözəlliyi birləşdirir.

Tofiq Ağababayevin rəngkarlıq əsərləri ilk növbədə duyğulandırıcı lirikası, rəng əlvanlığı ilə diqqət çəkir. Onun əsərləri, o cümlədən “Allahu Əkbər”, “Sofi Həmid”, “Nardaran piri” tablolarını lirizm və ruh yüksəkliyi gətirəcək uğurlu dövrün başlanğıcı hesab etmək olar. Mənzərə janrının bir qayda olaraq gözəllik qaynağı kimi qəbul edilməsinin qarşılığında Tofiq Ağababayev hamının gördüyü yerlərdə gözəlliklə yanaşı bunun yaranmasını şərtləndirə biləcək səbəblərə də yaradıcı insan münasibətini təqdim edir, həm də ilk baxışda gözəlliyin işartıları belə görünməyən guşələrdəki həmin bu qeyri-adi lirik məziyyətləri bizə də aşkarlamağa çalışır[17].

II Fəslin **“Portret janrında lirik obrazların həlli”** adlı ikinci yarımfəslində portret janrı lirik-psixoloji yük daşıyıcılığı kimi nəzərdən keçirilir. Qeyd olunur ki, 1950-60-cı illərin başlanğıcı bütün sovet incəsənətində yeni mərhələ oldu. Yeni təmayüllər, sərt üslub və onunla yanaşı güclü lirik-romantik meyllər gənc rəssamların

---

[16] Xalidə Səfərova və Mahmud Tağıyev: (rəngkarlıq və qrafika) /ideya Xalq Bank; mətnin müəl. Ş.Y. Məlikova. Bakı: Xalq Bank, 2011. s.32.
[17] Əliyev Z. Tofiq Ağababayev. Kataloq. Bakı, 2009. s.8.

yaradıcılığına, həm də artıq üslub və dünyagörüşləri formalaşmış rəssamların yaradıcılığına təsir etməyə bilməzdi. Lakin, üslublarla bir sıra sınaqlardan sonra bir çox rəssamlar sərt üslubdan uzaqlaşaraq, öz şəxsi bədii temperamentlərini, axtarışlarını davam edirdilər. Belə rəssamlardan biri, 50-ci illərin sonunda ən yaxşı portretçilərdən biri hesab edilən Böyükağa Mirzəzadə idi. Onun maestro Niyazinin, Səttar Bəhlulzadənin, Şəmsi Bədəlbəylinin, Lətif Kərimovun, Mirəli Seyidzadənin, Xəyyam Mirzəzadənin yağlı boya ilə çəkilmiş portretləri olduqca məzmunludur. Bu yaradıcı insanların daxili aləmini, duyğu və düşüncələrini zahiri görünüşdə, rənglərin dili ilə ustalıqla ifadə etməyi bacaran Böyükağa Mirzəzadə bu seriyadan müxtəlif əmək adamlarının, həm də həyat yoldaşının, yaxın dostlarının da portretlərini yaratmışdır[18].

Mikayıl Abdullayevin portretlər qalereyasına daxil olan əsərlərdə lirik və psixoloji hisslər əsas yer tutur. Bu qəbildən rəssamın “Üzeyir Hacıbəyov”, “Səməd Vurğun”, “Molla Pənah Vaqif”, “Pianoçu Fərhad Bədəlbəyli” və s. portretlərində rəssam təsvir etdiyi şəxsiyyətlərin daxili aləminə, psixologiyasına nüfuz etmiş, onların xarakterini ustalıqla aça bilmişdir.

Toğrul Nərimanbəyovun portretləri şəxsiyyət çərçivələrini aşır və ümumiləşmiş lirik obraz əldə edir. Onun belə portretlərindən “Ana” əsəri özündə böyük sevgi, gizli kədər, mehribanlıq, qüssə birləşdirir. Biz onun üzünün hər qırışında yaşadığı iztirabları oxuyuruq. Bu, obrazın gücüdür.

Asəf Cəfərovun portretləri gözəllik, məhəbbət, incəlik, xeyirxahlıq hissləri canlandırdığı üçün hər bir kəsə yaxın və anlaşıqlıdır. Rəssamın əsərləri özlərinin forma və məzmunlarının üzvi vəhdəti ilə heyranedicidirlər, bu da onları, sözün əsl mənasında, klassik səviyyəyə qaldırır. “Rəssam Asəf Cəfərovun portretlərində əksini tapmış adamlar xarakterinə, temperamentinə, maraq dairələrinə, zövqünə, ruhi və fiziki qabiliyyətinin miqyasına görə müxtəlifdirlər. Lakin rəssam daim çalışmışdır ki, şəxsiyyətin məlahətini onun əməllər dairəsi ilə üzvü vəhdətdə təqdim etsin”[19].

---

[18] Nəcəfov M. Böyükağa Mirzəzadə – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, s.12.
[19] Габибов Н. Асаф Джафаров. Живопись – М.: Советский художник, 1981. s.23.

Xalq rəssamı Altay Hacıyevin 2001-ci ildə təqdim etdiyi "Xalqımızın ulduzları" adlı fərdi sərgisində nümayiş olunan portretləri təsviri sənətimizdə lirik və psixoloji töhfə hesab etmək olar. Bu portretlər qalereyasına "Xan qızı" kimi tanınan Xurşudbanu Natəvanın, Naxçıvan xanı Ehsan xanın qızı Qönçəbəyimin, Nizaminin müasiri şairə Məhsəti Gəncəvinin, Qaçaq Nəbinin silahdaşı Həcərinin, Dərbənd qalasının müdafiəçisi Tutibikənin, Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənin anası Sara Xatunun, Qarabağ hökmdarı İbrahim Xəlil xan Cavanşirin bacısı Ağabəyim Ağanın, Tomrisin, Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşirin və məşhur kimyaçı-alim İzzət Orucovanın portretləri daxildir. Rəssam 2002-ci ildə bu silsiləyə Aşıq Pərinin də obrazını əlavə etmişdir. Bu portretlərin hər biri özündə xalqımızın tarixi etik-mənəvi və lirik məziyyətlərini yaşatdığından, onlar gələcəyə daşına biləcək gücdədirlər.

Fəsildə həmçinin Tağı Tağıyev, Mahmud Tağıyev, Oqtay Sadıqzadə, Toğrul Sadıqzadə, Vəcihə Səmədovanın lirik-poetik tərzdə işlənmiş portret əsərlər təhlil olunur.

II Fəslin **"Tematik tablolarda lirik obrazların səciyyəvi xüsusiyyətləri"** adlı üçüncü yarımfəslində lirik ruh tematik tablo obrazlarının səciyyəvi xüsusiyyəti kimi araşdırılır. Qeyd edilir ki, lirik-poetik üslubun əsasında tematik süjetli əsərlər dururdu, onlarda gerçəkliyin realistik canlandırılması daha çox hansısa sosializm mühitinin plastik rəmzlərinin, obrazlarının yaranması ilə əvəzlənirdi. 1960-70-ci illərin qovşağı ümumilikdə sovet incəsənətində, o cümlədən, Azərbaycan təsviri sənətində tematik tablolarda, həmçinin əsərlərin üslubiyyatında müəyyən irəliləyişlər özünü göstərir. Əsərlərin üslubu, onların kompozisiya və plastik həllərinin prinsipləri nəzərə çarpacaq dərəcədə dəyişir. İşlərin səciyyəsi daha rəngarəng olur: rəsmlərin obrazlı-plastik quruluşunda dramatik, epik, lirik, romantik intonasiyalar meydana çıxır. Ümumiliyə, yığcamlığa, lirik meyllərə cəhd daha çox koloritin dekorativ ifadəliyi ilə, rəng və formanın ekspressiyasına yüksək diqqətliliklə olan uyğunlaşma ilə başlayır. Bütün bunlar rəngkarlıq vasitələrinin və rəssamların palitra rənglərində arsenalın genişlənməsinə səbəb olurdu. Rəssamların çoxfiqurlu kompozisiyalarından çox az bir qismi, tam mənada bu təyinata uyğun gəlir. Ümumilikdə, onların

yaradıcılığından bəhs edərkən, görürük ki, əksər hallarda rəssamın lirik anlayışı üstün gəlir. Yaşadığı cəmiyyətin həyatına maraq, onun müxtəlif tərəflərini əks etdirmək, müxtəlif sənət adamlarını canlandırmaq – bütün bunlar rəssamlar nəsli üçün tamamilə təbiidir.

Yeni lirik-romantik istiqamətin əsas məğzi, rəssamların öz əsərlərində, hər birinin daha çox fərdi dərk etmə prizmalarından keçirdiyi milli və xalq ənənələrinə diqqət yetirmələri idi.

Xalq rəssamı Mikayıl Abdullayev “Səadət qurucuları” əsərində rəssamın yüksək səviyyədə bədii forma yaratmaq bacarığını qeyd etmək olar. Tablo olduqca dərin emosional təsir bağışlayır, rəssam əsərə öz hiss-həyəcanlarını gətirir. Sənətkar iki gənci nəhəng tikintinin mərkəzində təsvir edir. Əsərdə qaynayan, səs-küylü aləmdə bir-birini tapmış iki gəncin taleyinin ölkənin taleyi ilə sıx bağlılığı üzə çıxır. Onların saf və nəcib duyğuları quruculuğunda iştirak etdikləri böyük tikinti kimi indi-indi dünyaya göz açır. Müxtəlif duyğular, hiss-həyəcan burulğanı təsvir edən rəssam olduqca çətin vəzifənin öhdəsindən gəlir: qızmar, tozanaqlı havada sanki qanad açan sonsuz səadət duyğusunu canlandırır.

Lənkərana bir sıra səfərlər edən Böyükağa Mirzəzadə yaratdığı “Pambıq yığımı” kimi mövzulu əsərlərdən fərqli olaraq, burada daha çox lirik hisslərini tərənnüm edən əsərlər yaradır. Rəssamın “Günəşli gün” əsəri Azərbaycan qadınına həsr etdiyi tablolar silsiləsinə daxil olur. Qızın surəti, qeyri-ixtiyarı olaraq yuxarıda göstərdiyimiz 60-cı illərin əvvələrində çəkilən “Günorta” əsərini yada salmağa məcbur edir. Əsərdə müasir kənd gənclərini fərqləndirən cizgilər gözəl ifadə edilmişdi. Cavan qadın surəti sadə, həyati həll edilmişdi. Əsərdə bir çox parlaq günəş işıqları, sanki bütün əsəri doldurmuşdur.

Xalq rəssamı Maral Rəhmanzadənin “Xınalıq”, “Azərbaycanın qadınları”, “Vətənim”, “Doğma Azərbaycanım”, “Naxçıvan”, “Lənkəran”, “Laçın”, “Neft daşları” silsilələrində müəllifin torpağa, doğma yurda, onun əməksevər adamlarına mənəvi bağlılığı özünün geniş bədii ümumiləşdirmələrlə səciyyələnən obrazlı həllini tapmışdır. Rəssamın ağ-qara və rəngli cizgilər arasında əldə etdiyi ahəngdarlıq yüksək sənətkarlıqla müşayiət olunduğundan yaranan lövhələr kifayət qədər cəlbedici

və duyğulandırıcıdır. Meyvə və çay dolu səbəti aparan qızların obrazları, sazəndə qızların nikbin ovqatı, arzuların təntənəsi, başı xonçalı qız-gəlinin toy əhval-ruhiyyəsi, çeşmə başını tərk edən kuzəli gözəllərin inamlı duruşu əmin-amanlığın rəmzi kimi qəbul olunur.

Dissertasiyanın **“Müstəqilik dövrü Azərbaycan təsviri sənətində lirik motivlərə müraciət”** adlanan III fəslinin **“Rənglərin və çalarların lirik ovqat daşıyıcılığı”** adlı birinci yarımfəslində boyakarlıq əsərlərində yer alan rənglərin poetik-lirik təsir gücü ilə bağlı məsələlər araşdırılır.

Azərbaycan milli rəngkarlığının həm respublika, həm də beynəlxalq miqyasda tanınmasına əsasən ötən əsrin 90-cı illərindən başlayaraq böyük vüsət alan ideoloji və bədii üslub mübarizəsinin böyük rolu olub. Bu mübarizənin başlanğıcında Fərhad Xəlilov, Nazim Rəhmanov, Əlövsət Əliyev, Rafael Muradov və b. xüsusi fəallıq göstəriblər. Yeri gəlmişkən deyək ki, əgər sovet dönəmində bu ayama qınaq, kinayə mənasında işlədilirdisə, müstəqillik illərində hər şey öz yerini qismən də olsa tutanda bu ayama artıq cəsarət və qürur, tərif mənasını aldı.

Sovet rəssamlığında “sərt üslub”un aparıcı olduğu altmışıncı illərdə sənətdə ilk addımlarını atan Rafael Muradovun bu üslub da daxil olmaqla qalanların da əleyhinə, başqa sözlə desək, ümumi axının əksinə getməyi yaradıcılıq amalına çevirən “Abşeron məktəbi”nə meyl göstərməsi bir qədər gənclik ehtirasına tapınsa da, düşünülmüş addım idi. Onun 40 illik yaradıcılıq yolu, eləcə də “müstəqillik dövrü” mərhələsi də bu məktəbə xas olan ən başlıca məziyyəti – tamaşaçının da daha çox inandığı səmimiliyi yaşatdığını təsdiqləyir. Bunun üçün o, heç də gur səslənən mövzulara, ecazkar motivlərə müraciət etməyib. Axtardıqlarını doğma Abşeron təbiətində və nemətlərində, müasirlərinin həyat tərzində tapan rəssamın “Tut ağacı”, “Qəfəs”, “Xəzri”, “Alahu-Əkbər”, “Sirri-Xuda”, “Çildağ”, “Sona bülbüllər”, “Firuzeyi hava”, “Ərik ağacı” və s. əsərləri də bunun təsdiqidir[20].

Həyat həqiqətlərinə fərqli münasibəti Rəna Əmrahovanın əsərlərində də görmək mümkündür. Fərdi özünü ifadəyə meylli olan rəssam eksperimentlərə bağlılığını

---

[20] Вагабова Д.Р. Новые тенденции в азербайджанской живописи 1970-х -80-х годов. Дисс. на соискание степени канд. наук, М.,1993. с.22.

əksər əsərlərində nümayiş etdirmişdir. Ənənəvi, standart, qəlib incəsənətindən qaçan rəssam rəngkarlığın mövcud ifadə və forma-biçim çərçivəsini genişləndirməyə çalışmışdır. O, məna tutumu çoxqatlı olan mənzərələrində əvvəlcə nisbətən reallığa tapınsa da, sonradan əsərlərinin bədii şərhini şərtilik və lakoniklik əvəzləyir. Bədii ifadədə sərbəstlik, poetik rəmzdən istifadə ona əsərlərindəki rəngin naturanın surətini yox, obrazını yaratmaqda yardımçı olmuşdur. Bu keyfiyyətli əsərlərdə rəssam Rəna Əmrahova lirik səpkilərdən istifadə etmişdir. Bunlara aid olan "Cənnətə qayıdış", "Yuva", "Yaz küləyi" əsərləri göstərmək olar.

Əski milli qaynaqlarımıza öz yaradıcı və analitik münasibətini bildirməklə özünəməxsus əsərlər yaratmış Qəyyur Yunusun tablolarını son dövr rəngkarlığımızın fərqli görüntülərindən hesab etmək olar. Əsərlərinin bədii şərhində "Qacar üslubu"na istinad edən rəssam təkcə əski ənənələrlə anım yaradan yox, eyni zamanda geniş məna-məzmun daşıyıcısı olan əsərlər yarada bilmişdir. "Kasıblar və varlılar", "Xəzər gözəli", "Azərbaycanlılar", "Ailə", "Yuxu" tabloları bütün bədii-estetik məziyyətlərinə görə milli ruhlu və ovqatlıdır. Obrazların vahidliyi, onların lirik səslənməsi və əsərin mükəmməlliyi, harmoniyası Qəyyur yaradıcılığını həqiqətən universal və dünya mədəniyyətində ən möhtəşəm yerə sahib olan orta əsr Azərbaycanın incəsənət estetikasının fundamental əsası ilə ahəngdar edir.

Öz yaradıcılığında sərt romantikadan lirik ovqata qədər bədii axtarışlar və tapıntılar yolunu keçmiş Cəlil Hüseynovun müxtəlif janrlarda çəkdiyi əsərlərdə bunu müşahidə etmək mümkündür. Bir qayda olaraq o, kətan üzərində təsvir obyektlərinin oxşarından daha çox bədii obrazını yaratdığından ("Qadın portreti", "Natürmort", "Naxçıvan mənzərəsi") və belə əsərlərdə reallıqla təfsir qoşalaşdığından onlar rəssam təxəyyülü və yaşantılarının ifadəsi kimi qəbul olunmaqla həm də düşündürür. Cəlil Hüseynovun mənzərələrinə hakim kəsilən məziyyətlərin ən başlıcası onlarda müəllifin gördüklərindən heyrətlənə bilməsini ifadə etməsidir.

Nazim Bəykişiyev müasir rəngkarlığımıza vaxtilə Səttar Bəhlulzadənin gətirdiyi lirik ovqatı başqa bir biçimdə uğurla davam etdirməklə maraqlı əsərlər yarada bilmişdir. Bəyaz kətan üzərində ağ rəngin müxtəlif çalarları ilə yaratdığı pastel boyalarının yumşaqlığı ilə anım yaradan incəliklə təbiətin kövrək və təravətli

məqamlarını ifadə etməyə (“Ağ evlər”, “Naxçıvan dağları”, “Novxanı bağları”, “Yağışdan əvvəl”) imkan verib.

Nazim Bəykişiyevin Abşeron mənzərələri seriyaları məşhur Abşeron rəssamlıq məktəbinin davamı kimi baxılır. Abşeron bağlarının yastı damları, toz-torpağa bürünmüş kimi görünən kol-koslu, Abşeron torpağını gözlərimiz önündə canlandırır. Nazim Bəykişiyev Abşeron payızına həsr olunmuş mənzərələrə daha çox üstünlük vermişdir. Bu səpkili mənzərələrdə ilk öncə ovqat, əhval-ruhiyyə açıq rənglərin istifadəsi ilə yaradılmışdı.

“Müstəqillik dövrü” rəngkarlığında Asif Azərelli, Çingiz Fərzəliyev, Oqtay Şıxəliyev, Sakit Məmmədov və b. əsərlərində realizmin bədii ifadə imkanlarını genişləndirməyə cəhd hiss olunur.

Sirus Mirzəzadə yaradıcılığında axtarışların nəticəsi olan bədii ifadələrini şərtiliyə və rəmzləşdirməyə yönəltsə də təsvir motivlərini elə bu bədii vasitələrin təsir gücü ilə duyğulandırıcı edə bilmişdir. “Zoğal ağacı və şanapipik”, “Rəssamın qonağıyıq” əsərləri çoxsaylı atributlardan təşkil olunsalar da, onlarda şanapipiyin davamlı yer alması ilk növbədə rəssamın obrazları bu quşun missiyasına uyğun xoş xəbər sorağında olmalarına işarə etməsi ilə bağlıdır. Rəssamın “Rəngli yelkənlər”, “İlin üç fəsli”, “Sevgililər”, “Röyaya dalmışlar”, “Lampa işığında”, “Aylı gecə”, “Mənim əcdadlarımın torpağı”, “Fələstin kədəri”, “Çağırış” əsərlərində də rənglərin dekorativliyi təzadlı yaşantıları ifadə etməkdə köməkçi olduğundan təsirli baxılırlar.

Lirik mənzərələr yaradıcılıq azadlığı axtaran rəssamlar üçün hər zaman maraqlı olub. Rəsm əsərləri zəngin mənəvi aləmin dəyərləndirildiyi plastik düşüncə sahəsinə çevrilirdi. Burada ictimai realizmin məqsəd və qaydalarına qarşı çıxan estetik dəyərlər yer alırdı. Məqsədlər, vasitələr və obrazın xarakteri intimləşdirilirdi. Müxtəlif rəssamlar əvvəlcə gerçəkçi (realist) fəndləri zərifliklə və impressionistik elementlərlə ifadə edirdilər. Güc və itiliyini itirən kolorit və kompozisiya həllinin müxtəlifliyi və yumşalması nəticəsində naturaya yaxınlaşma müşahidə edilir.

III Fəslin ikinci yarımfəsli **“Lirik duyğuların qrafik cizgilərində təcəssümü”** adlanır. Müstəqillik dövründə respublikada qrafikanın inkişafı istiqamətində səmərəli addımlar atılmış, bir sıra müvəffəqiyyətli nəticələr əldə edilmişdi. Bu sahədə çalışan

rəssamlardan Rafiq Mehdiyev, Cəmil Müfidzadə, Arif Hüseynov, Adil Rüstəmov, Arif Ələsgərov, Rasim Nəzirov, Vaqif Ağayev, Tofiq Kazımov, Rəsul Hüseynov, Telman Abbasov, Vəfa Allahyarova, Sara Manafova və başqalarının əsərlərinin lirik poetik səpkisi diqqətəlayiqdir. Onların yaratdıqları maraqlı qrafika nümunələrində obrazlı təfəkkür tərzi, fəlsəfi ümumiləşdirmə, milli dəyərlər və şəxsiyyətin daxili aləminə müraciət ön plana çəkilmiş, təsvir dilinin lakonikliyinə, ifadə vasitələrinin yüksək plastik həllinə nail olunmuşdu.

Arif Ələsgərovun qrafika əsərlərində həyatın incəsənətlə lirik tərzdə əlaqəsi öz əksini tapmışdır. Rəssam müasirliyin aparıcı, magistral mövzularına, əsl novatorluğa, bədii forma zənginliyinə maraq gətirir, milli özünəməxsusluğu ilə fərqlənən dolğun və təsviri obrazlar yaratmağa çalışır. Rəssamda varlığın fəlsəfi idrakına, müasirlərin mənəvi aləminin, zəkasının, hiss və həyəcanının təhlilinə meyl artır. Bu baxımdan "Qış bazarı" çox təqdirə layiqdir. Arif Ələsgərovun ofort texnikasında lirik tərzdə "Abşeron", "Narlar", "Gənclik", "Sübh çağı" və s. əsərləri çox dəyərlidir.

Adil Rüstəmovun yaradıcılığında milli dəyərlərin və ədəbi irsin, türkçülük ideyalarının və qədim ənənələrin sadiq təbliğatçısı kimi çıxış edən rəssam, fərdi dəst-xəttə və təkrarsız qrafik üsluba malikdir. Onun hər bir qrafik əsəri böyük estetik zövq və tarixi baxımdan yüksək səviyyənin təzahürüdür. Adil Rüstəmovun "İki qızıl balıq", "Sahildə bir quru balıq vardı...", "Gecə vaxtı dəniz kənarında" silsiləsindən "Kompozisiya №1", "Kompozisiya №2", "Doğma diyar" əsərlərində isə rəssam öz yaradıcılıq dəsti-xəttinə sadiq qalaraq, real həyat lövhəsindən aldığı təəssüratın maraqlı müəllif şərhini tamaşaçısına təqdim edir. Bu şərh isə olduqca çoxcəhətli, bəzən hətta qeyri-real olanların maraqlı interpretasiyası kimi təqdim edilir. Bu əsərlərdə amorf və mücərrəd fiqurlar konkret və real olanlarla bir arada əks edilirlər. "Adil Rüstəmovun rəssam, daha çox isə vətəndaş münasibətinin vaxtında, özü də layiqli səviyyədə gerçəkləşdiyini söyləməliyik. Obrazlı desək, onun rənglərdən "yoğrulan", cizgilərdən "hörülən" lirik səpkili əsərləri ovqat daşıyıcısıdırlar"[21].

1992-ci ildə Arif Hüseynovun tərtibatında nəşr edilən Söhrab Tahirin "Lirika" kitabı, Azərbaycanda nəşr edilən miniatür kitablar silsiləsinin maraqlı nümunələ-

---

[21] Əliyev Z., Xəlilov A. Azərbaycan İncəsənəti. II-III hissələr. Bakı, 2011, 142 s.

rindən biri kimi diqqəti cəlb edir. Arif Hüseynovun illüstrasiyaları, şairin şeirlərinin ideyasını əks etdirmək və lirik ovqatın çatdırılması baxımından maraq doğurur. Həmçinin şərti ifadə vasitələri ilə zəngin olan bu illüstrasiyalar, çoxplanlı kompozisiya kimi həll edilərək, lirik obrazların çoxcəhətli poetik aləmini əks etdirmək baxımından rəssamın miniatür kitab qrafikası sahəsində uğurlu işi hesab edilməlidir.

Rəsul Hüseynovun 1999-cu ildə çəkdiyi "Xəzər axşamçağı" lövhəsi bədii həllinə görə bu motivə həsr olunmuş əsərlər arasında xüsusilə seçilir. Üfüqi kompozisiyanı sahildən dənizə baxış təşkil edir. Heç şübhəsiz, rəssam əsərin cəlbediciliyinə ilk növbədə hamının gözündə adiləşən bu motivə duyğu bəxş edən ayrıntılar əlavə etməklə nail olmuşdur. İlk növbədə bu, missiyanı yerinə yetirmiş günəşin qüruba enməsi səhnəsidir. Elə məkanın ecazkarlığını şərtləndirən qəribə aura da, məhz gecənin gündüzlə qarşılaşmasına verilən həssas koloritdir. Burada dənizin üzərində pərvazlanan qağayılardan başqa demək olar ki, hər şey öz rəngini dəyişmişdir. Günəş də, dəniz də, sahil də, onun qarşısında sıralanan qayıqlar da günəşdən çox, gecəyə "yaxın" görünür, onun rənglərini daşıyırlar. Amma bu duyulası rəng itkisində nə qədər gözəllik, nə qədər lirika mövcuddur. Sözlü ifadəsi bəlkə də çətin olan bu estetik gözəlliyə sulu boyaya bələdçiliyi ilə nail olan Rəsul Hüseynov, doğrudan da kiçik bir əsərdə cəlbedici möhtəşəmliyə nail ola bilmişdir. Batmaqda olan günəşin sularda əksi, suların "pıçıldayan" sinəsi üzərində qağayıların uçuşu ovsunlayıcıdır.

Azərbaycan qrafika sənətində öz imzasını təsdiqləyən rəssamlardan biri də Vəfa Allahyarova olmuşdur. Onun "Mənzərə", "Atçılar", "Şərq motivləri", "Abşeron" əsərləri lirik ovqatın çatdırılması sahəsində gənc rəssamın apardığı axtarışların nəticəsi kimi qiymətləndirilməlidir.

**Nəticədə** tədqiqatın əsas qənaətləri yekunlaşdırılır:

- Səfəvilər hakimiyyəti dövründə özünün yüksək inkişaf səviyyəsinə çatmış Azərbaycanda miniatür boyakarlığında lirik emosiyanın xüsusi daşıyıcısı kimi rəng sistemi çıxış edirdi. Miniatür əsərlərinin bədii-estetik təsir qüvvəsini təşkil edən, onlara əsrarəngiz gözəllik verən zəngin kolorit və dekorativlikdir. Qəhrəmanların

hiss-həyəcanları, lirik duyğuları, ümumilikdə psixoloji xarakteri isə üzlərindəki ifadələri göstərməklə deyil, zahiri əlamətləri vasitəsilə əks etdirilir;

- XVIII – XIX əsrin II yarısında Azərbaycan təsviri sənətində yaranan əsərlər bədii obrazın idealizə edilməsi, formanın dekorativ səpkidə həlli, zərif və ifadəli rəsmi, lokal və parlaq rənglərin kontrast düzümü, koloritin zənginliyi, lirik-romantik əhval-ruhiyyənin dolğunluğu və başqa üslub xüsusiyyətlərinə görə klassik Şərq miniatürünün gözəl ənənələrini əks etdirir;

- Sovet dövründə çalışan rəssamların işlərində müasirlərin portretlərində milli xarakterin axtarışı, janrlı əsərdə məişətin lirik-poetik şərhi və ənənəvi ideallarla varislik ideyasına maraq artır, müasirlər üçün xalq sənətkarlarının müdrikliyinin əvəzedilməz mənası açıqlanır, irsə müraciətin yalnız milli üslub axtarışları hüduduna sığışmamağı kimi nəzəri müddəa açıqlanırdı;

- müasir dövrdə Azərbaycan incəsənəti yeni bir inkişaf mərhələsi yaşayaraq, siyasi və ideoloji sifarişlərdən azad olaraq, bədii təfəkkürün yeni formalarını mənimsəyərək, dünya incəsənətinin ayrılmaz tərkib hissəsi olan lirik-poetik üslubun təşəkkülü üçün imkan yaratmışdır;

- müasir rəssamların müxtəlif janrlarda və texnikalarda işlənmiş əsərlərini səciyyələndirən təsvir dilinin, ifadə vasitələrinin zənginliyi, obrazlı düşüncə tərzinin şərti-rəmzi dərinliyini göstərir ki, Azərbaycan təsviri sənəti çağdaş mərhələyə qədərki dövrdə özünün maraqlı, axtarışlarla dolu inkişaf dövrünü keçirmişdir. Həmin əsərlərə xas olan obrazlı-rəmzi düşüncə tərzi, poetik və lirik bədii yozum, əsərlərin aşıladığı fəlsəfi qayə buna sübutdur.

**Dissertasiyanın əsas məzmunu və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**

1. Cəmil Müfidzadənin “Misir təəssüratları // “Qobustan”. №3/149.2010, s.16-21
2. Qəyyur Yunusovun yaradıcılığında lirik mövzu (1970-90-cı illərdə) // “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri”. № 1(9), 2012, s.84-88.
3. Истоки творчества Саттара Бахлулзаде и классическая миниатюра // Кабардино-Балкарский Государственный Университет им. Х.М.Бербекова «Язык,

культура, этикет в современном полиэтническом пространстве». Нальчик-2013, с.136-140.
4. XX əsrin ikinci yarısında Azərbaycan rəngkarlığında lirik təmayüllər // “Mədəni həyat” №11, 2014, s.36-38.
5. Təsviri sənətdə lirika // “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri”. № 1(13) 2014, s.54-58.
6. Лирическое восприятие мира и особенности его воплощения в искусстве //«Поиск». Научный журнал-приложение Международного научно-педагогического журнала «Высшая школа Казахстана» № 3, 2014, с.6-12.
7. “Respublikanın əməkdar rəssamı Rəsul Hüseynovun lirik səpkili əsərləri” // “Qobustan”, 2015. (çapdadır).

*Сабир Надир оглы Гасымов*

## Воплощение лирических тем в азербайджанском изобразительном искусстве

## Р Е З Ю М Е

Диссертация посвящена исследованию лирической темы, нашедшей воплощение в живописных и графических произведениях азербайджанских художников.

Диссертация состоит их введения, трех глав, семи подглав, заключения и библиографического аппарата. Во введении обосновывается актуальность темы, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**В I главе** «Воплощение лирических сюжетов в средневековом изобразительном искусстве Азербайджана» рассматриваются азербайджанские миниатюры, в которых нашла отражение тема лирики, а также лирические мотивы в азербайджанском изобразительном искусстве XVIII-XIX веков.

**II глава** диссертации, названная «Художественные особенности лирических произведений в изобразительном искусстве Азербайджана советского периода», исследует пейзажные произведения азербайджанских художников, написанных в лирико-поэтическом русле. Также анализу подвергается портретное творчество, рассматриваемое как носитель лирико-психологического настроения и характерные особенности тематических табло известных художников Азербайджана, наполненных лирическим духом.

**III глава** диссертации «Обращение к лирическим мотивы в азербайджанском изобразительном искусстве периода независимости» исследованию подвергаются живописные и графические произведения азербайджанских художников, характеризующихся лирико-поэтическим настроением.

В **Заключении** обобщаются основные выводы исследования.

*Gasimov Sabir Nadir*

# Embodiment of lyrical themes in Azerbaijan Fine Art

## SUMMARY

The dissertation is devoted to the study of lyrical theme, which found embodiment in painting and graphic works of Azerbaijan artists.

The dissertation consists of introduction, three chapters, seven subchapters, conclusion and bibliographic apparatus. It is substantiated the actuality of the theme, determined the degree of investigation of the problem, purpose and objectives, described the scientific novelty, characterized the main sources, the chronological framework and practical significance of the work in the introduction.

**In Chapter I,** "Embodiment of lyrical and poetic themes in medieval Fine Art of Azerbaijan" are reviewed Azerbaijan miniatures, which reflected the theme of the lyrics and lyrical motifs in Azerbaijani Fine Art of XVIII-XIX centuries.

**Chapter II** of the dissertation entitled "The role of poetry in the Fine Arts of Azerbaijan in the Soviet period»investigates the landscape works of Azerbaijan artists, written in a lyrical and poetic way. In addition, it is analyzing portrait work, reviewed as carriers of lyrical and psychological load, and features of themed paintings of Azerbaijanfamous artists, which are full of lyrical spirit.

**In Chapter III** of the dissertation "Lyrical motives of the Azerbaijan Fine Arts in the period of independence of Azerbaijan," is studied the paintings and graphic works of Azerbaijan artists, characterized by a lyrical and poetic mood.

Conclusion summarizes the main consequences of the study.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБ-ЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**САБИР НАДИР оглы ГАСЫМОВ**

# ВОПЛОЩЕНИЕ ЛИРИЧЕСКИХ ТЕМ В АЗЕРБАЙДЖАНСКОМ ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

**Специальность: 6215.01 – «Изобразительное искусство»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии в области искусствоведения**

**БАКУ – 2015**